1 - 2_Layout 1 14.10.2019 17:14 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 20 (561)

16 oktyabr 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# Azərbaycan Prezidentindən Ermənistana növbəti siyasi-diplomatik zərbə

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Cəfərlinin “İLHAM ƏLİYEV: Qarabağ Azərbaycandır, nida” başlıqlı məqaləsinin ictimai aktuallığını nəzərə alaraq, ixtisarla sizlərə təqdim edirik.**

Soçidə keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasının ən yaddaqalan məqamı sözsüz ki, İlham Əliyevin çıxışı oldu. Ona görə ki, bu çıxış Azərbaycan Prezidentinin Ermənistana vurduğu növbəti siyasi-diplomatik zərbə kimi tarixə düşdü. Bununla həm də Ermənistanın beynəlxalq səviyyədə ifşası istiqamətində növbəti uğurlu addım atıldı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistanın işğalının nəticələrinə diqqət yetirdi, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi 4 qətnamənin 25 ildən çoxdur yerinə yetirilmədiyini vurğuladı: “BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. İyirmi beş ildən çoxdur ki, bu qətnamələr yerinə yetirilmir. Burada biz mühüm məsələyə - qəbul olunmuş qərarların yerinə yetirilməsinə gəlirik. BMT Təhlükəsizlik Şurası ali beynəlxalq orqandır. Əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu, həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Azərbaycanda bizi qətnamələrin yerinə yetirilməsinin reallaşdırılmasının seçmə xarakteri narahat edir. Bəzən onlar bir neçə gün ərzində yerinə yetirilir, bəzən isə müəyyən hərbi əməliyyatların həyata keçirilməsində onlara, ümumiyyətlə, ehtiyac qalmır. Bizimlə bağlı məsələdə isə qətnamələr kağız üzərində qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır”




Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanır. Lakin Minsk qrupu vasitəsilə aparılan sülh danışıqları 1994-cü ildəki atəşkəs razılaşmasından bəri nəticəsiz qalır. Bu təşkilatların müvafiq sənədlərində işğalçı qoşunların Azərbaycan Respublikasının işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilsə də, Ermənistan bütün dünyanın gözü qarşısında buna məhəl qoymur.

**Nöqtəni məhv edən NİDA**

Danışıqlar prosesinin nəticəsiz qalmasına rəğmən Azərbaycan dövləti torpaqların azad edilməsi üçün istər siyasi-diplomatik, istər iqtisadi və digər sahələrdə genişmiqyaslı iş aparır. Bu məsələdə əsas fəaliyyət istiqamətlərindən biri Ermənistanın işğalçı siyasətinin beynəlxalq miqyasda ifşasına nail olmaqdır. Respublikamız bunun üçün bütün imkanlardan səmərəli istifadə edir. Buraya beynəlxalq təşkilatlarla faydalı əməkdaşlıqdan tutmuş, qlobal informasiya müharibəsində aktiv fəaliyyət, hücum diplomatiyasının həyata keçirilməsi və s. daxildir.

Ümumiyyətlə, Ermənistanın ifşası ilə bağlı fəaliyyət daimi olmalıdır. Prezident İlham Əliyev “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı zamanı bunu yüksək siyasi-diplomatik peşəkarlıqla etdi. Bu, bütün Azərbaycan xalqının ürəyindən xəbər verən bir çıxış oldu. Prezident İlham Əliyev Ermənistanın baş nazirinin məlum bəyanatının yalan olduğunu vurğulayaraq dedi: “Həmçinin, Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də “Valday” forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə”. Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”.

Onu da qeyd edək ki, Azərbaycan Prezidentinin dünyanın məşhur “beyin mərkəzləri”ndən biri olan “Valday” Beynəlxalq Diskussiya Klubunun plenar iclasına dəvət olunması, habelə keçirilməsi nəzərdə tutulan çoxsaylı yüksəksəviyyəli görüşlər də dövlət başçımıza dünyada olan böyük hörmətin göstəricisidir. Kifayət qədər populyarlıq qazanmış bu beynəlxalq platformada bir çox ölkə rəhbərləri, dünyanın ən nüfuzlu akademik dairələri, siyasətçilər, jurnalistlər bəşəriyyətin qarşısında duran ən aktual problemləri müzakirəyə çıxarırlar.

Builki müzakirələrin kulminasiyası isə Prezident İlham Əliyevin çox ağıllı, düşünülmüş NİDA cavabı oldu. Bu, nəinki ermənilərə, eyni zamanda onların himayədarlarına da sərt və tutarlı cavab kimi tarixə düşdü. Məsələnin diqqəti çəkən başqa bir tərəfi odur ki, Azərbaycanın dövlət başçısı İlham Əliyev cavabı Bakıda deyil, ölkədən xaricdə - Rusiya Prezidenti Vladimir Putinin, İordaniya Kralı II Abdullanın, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin və Filippin Prezidenti Rodriqo Roa Dutertenin iştirak etdikləri mötəbər tədbirdə verdi.

**Azərbaycan Prezidentinin Soçidə səsləndirdiyi bütün fikirlər dünya ictimaiyyətinə bir daha ciddi mesaj oldu. Azərbaycanın üzləşdiyi problemin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırdı və haqqın bizim tərəfimizdə olduğunu əsaslandırdı. Təbii ki, bu çıxış Azərbaycan diplomatiyası qarşısında yeni hədəflər müəyyənləşdirdi. Bu hədəflərin uğurla qət edilməsi və Ermənistanın diplomatik sıxışdırılması torpaqlarımızın azad edilməsi istiqamətində ən mühüm vəzifələrdən biridir.**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 5-də DİN-in Daxili Qoşunlarının Quba rayonunda yerləşən hərbi hissəsində olub.**



Qarşılanma mərasimindən sonra hərbi hissənin qərargahında “Şərəf kitabı”nı imzalayan nazir əsgər və hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu ilə maraqlanıb, həmçinin, maddi-texniki təminat, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq-quruculuq işləri ilə yaxından tanış olub.

Sonra sıra meydanında əsgər və hərbi qulluqçular qarşısında çıxış edən Daxili İşlər naziri V.Eyvazov yaxın tariximizə qısa ekskurs edərək müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı problemlər, torpaqlarımızın işğalı, Ulu Öndərin ali hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilmiş müsbət nəticələr barədə məlumat verib.

Ölkə Prezidenti cənab İlham Əliyevin respublika Daxili İşlər Nazirliyinin və onun ayrılmaz hissəsi olan Daxili Qoşunların ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizənin səmərəli təşkilində, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, insan və vətəndaş hüquq və azadlıqlarının təminində müstəsna rolunu və fədakar xidmətini hər zaman yüksək qiymətləndirdiyini vurğulayan nazir, DİO-nun zəruri avadanlıq və texnika ilə təchizatına böyük diqqət yetirildiyini, məhz belə ali diqqət və qayğı sayəsində bu gün Daxili İşlər Nazirliyi, onun öncül qurumlarından olan Daxili Qoşunların müasir tələblərə cavab verən texniki və xüsusi vasitələrlə təmin olunduğunu, şəxsi heyətin iş, eləcə də sosial-məişət şəraitinin ilbəil daha da yaxşılaşdığını bildirib.

Nazir onu da qeyd edib ki, bu gün ölkəmizdə demokratik prinsiplər əsasında insan hüquqlarının təmin olunması, qorunub-saxlanılması istiqamətində mühüm işlər görülür. Vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin edilməsi məqsədilə ölkə rəhbərliyinin dövlət qurumları, o cümlədən Daxili İşlər Nazirliyi qarşısında qoyduğu konkret vəzifələrə uyğun olaraq, müvafiq qərarlar verilir, nazirliyin rəhbərliyi tərəfindən respublikanın şəhər və rayonlarında vətəndaşlar qəbul edilir, onların hər bir müraciəti üzrə lazımi tədbirlər görülür, qaldırılan məsələlərin əksəriyyəti yerindəcə həllini tapır.

Şəxsi heyətə tapşırıq və tövsiyələrini verən nazir Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının əməkdaşları, o cümlədən Daxili Qoşunların hərbi qulluqçuları göstərilən ali diqqət və qayğıya cavab olaraq sabitliyin, əmin-amanlığın etibarlı qorunmasına, cinayətkarlıqla qətiyyətli mübarizə işinə öz nümunəvi xidməti ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaqdır.





Sonda hərbi hissənin əsgər və hərbi qulluqçuları təntənəli marşın sədaları altında tribuna önündən keçiblər.

2_Layout 1 15.10.2019 8:49 Page 1



# 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür

**Oktyabrın 18-i Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür. İyirmi səkkiz il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi.**



Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyinin əbədi və dönməz etdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edən Ümummilli Lider Heydər Əliyev müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Ulu Öndərin yorulmaz səyləri nəticəsində qısa müddətdə Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Əsl müstəqillik isə öz sərvətlərinin tam sahibi olmaqdır. 1994-cü il sentyabrın 20-də Heydər Əliyevin müəllifi olduğu nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu müqavilədə iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələr, Avropa və bütövlükdə dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. 1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndərin müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ümummilli Liderin çoxşaxəli fəaliyyətinin nəticələrinə arxalanaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə nəzərəçarpan tərəqqi əldə edib. Azərbaycan yerləşdiyi bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkəyə çevrilib. Azərbaycan özünün siyasi və iqtisadi qüdrəti, strateji mövqeyi, zəngin təbii ehtiyatlarından xarici siyasət prioritetlərinin təmin olunmasında məharətlə istifadə edir. Milli maraqlara uyğun olaraq beynəlxalq birliyin əksər üzvləri ilə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirilir. Dövlətimizin başçısının həyata keçirdiyi uğurlu inkişaf strategiyası nəticəsində ölkə iqtisadiyyatı özünün inkişaf sürətinə görə dünyada ən yüksək yerlərdə durur.

Beləliklə, vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub saxlanılan müstəqilliyimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və onun əbədiliyi təmin edilir. Bütün bunlar bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir.

**AZƏRTAC**

## TƏLİM SINAQLARINI UĞURLA BAŞA VURAN XÜSUSİ TƏYİNATLILARIMIZ ZOĞALI BERETİ DAŞIMA HÜQUQU QAZANIBLAR

Dünya dövlətlərində, müxtəlif iqlim və relyef şəraitlərində mürəkkəb əməliyyatlar apara bilən, yüksək hazırlıqlı xüsusi təyinatlılar demək olar ki, Silahlı Qüvvələrin ən etibarlı, eyni zamanda, seçmə bölmələri sayılır. Müxtəlif ölkələrdə müəyyən şərti adlarla tanınan xüsusi təyinatlı dəstələr mövcuddur ki, bu dəstələrdə xidmət etmək üçün hərbi qulluqçular il ərzində çox çətin təlim sınaqlarına cəlb olunur və yalnız müvəffəqiyyət əldə edənlər onların sıralarına daxil edilirlər.





Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının xüsusi təyinatlı dəstələri inkişaf etmiş dövlətlərin eyni təyinatlı bölmələrindən heç də geri qalmırlar.

Qoşunların xüsusi təyinatlı bölmələrinin hərbi qulluqçuları xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində fərdi fiziki hazırlığın, peşə vərdişlərinin, həmçinin, yüksək mənəvi-psixoloji keyfiyyətlərin yoxlanılması məqsədilə təlim sınaqlarına cəlb olunurlar. Təlim sınaqlarını uğurla başa vuran hərbi qulluqçular isə zoğalı beret daşıma hüququnu qazanırlar.



Bununla əlaqədar olaraq hərbi hissələrdən zoğalı beretin daşınması hüququnun qazanılması üçün peşə hazırlığı sınaqlarında iştirak edəcək hərbi qulluqçuların siyahıları Daxili Qoşunların "Zoğalı beretlilər" şurasına təqdim olunur.



Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq əmrilə sentyabrın 27-dən 28-nə kimi 99713 saylı hərbi hissənin təlim mərkəzinin ərazisində və hərbi hissənin təlim obyektlərində 99713, 67987, 17072, 17071, 25033, 16077, 12318, 17074, 16073 və 16075 saylı hərbi hissələrin xüsusi təyinatlı dəstələrinin hərbi qulluqçuları ilə növbəti sınaqlar keçirilib.

Ümumilikdə, sınaqlarda iştirak edən hərbi qulluqçular yüksək cəsarət və əzmkarlıq göstərərək, əvvəlki illərə nisbətən daha müsbət nəticələr əldə ediblər. Sınaqlar zamanı heç bir intizam pozuntusuna və xəsarətalma hallarına yol verilməyib. "Zoğalı bereti qazanmaq üçün peşə hazırlığı sınaqları"na Daxili Qoşunlarda "Zoğalı beretlilər" şurasının sədri general-mayor İnqilab Muradov rəhbərlik edib.

Təlim sınaqları altı mərhələdə keçirilib. İlk olaraq, yolüstü taktiki tapşırıqları yerinə yetirməklə, 10-12 km məsafəyə tam təchizatlı marş qaçışını uğurla başa çatdıran xüsusi təyinatlılar ikinci mərhələdə ekstremal şəraitdə xüsusi maneələr zolağını dəf ediblər. Sonra avtomat, pulemyot və tapançadan xüsusi təlim atış çalışmaları yerinə yetirilib. Xüsusi-taktiki və həmlə-desant hazırlığı mərhələsində tikilidə olan şərti silahlı cinayətkarlar alpinizm vəsaitlərindən istifadə etməklə pəncərə və eyvanlardan içəri daxil olan xüsusi təyinatlılar tərəfindən zərərsizləşdirilib.

Ümumilikdə, peşə hazırlığı sınaqlarının keçirilməsi müddətində tədbirə cəlb olunan 63 nəfər iştirakçıdan 18 nəfəri sınaqları müvəffəqiyyətlə başa vurub. Hər dörd mərhələni uğurla yerinə yetirən hərbi qulluqçular beş və altıncı sınağa keçidi təmin ediblər. Onlar yüksək fiziki hazırlıq nümayiş etdirərək, əlbəyaxa döyüş fəndlərini də bacarıqla yerinə yetiriblər.

Beləliklə, iki gün davam edən "Zoğalı bereti qazanmaq hüququ əldə etmək üçün peşə hazırlığı sınaqları"na cəlb olunan xüsusi təyinatlılarımızdan 18 nəfəri tələb olunan normativləri müvəffəqiyyətlə başa vuraraq bu ada layiq görülüb.

**baş leytenant**
**Nigar Ağayeva**

*İdman*

## Hərbi qulluqçumuz 2020-ci il Tokio Yay Olimpiya Oyunlarına lisenziya qazanıb

**Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında İdman komandasının zabiti baş leytenant Ruslan Lunev 2020-ci Tokio Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.**








Artıq uzun zamandır ki, respublikamızı bir çox beynəlxalq idman yarışında yüksək səviyyədə təmsil edərək, qələbə sevincini həmvətənlərinə yaşadan baş leytenant Ruslan Lunev oxucularımıza tanışdır. Daxili Qoşunların İdman komandasında məşqçi-müəllim vəzifəsində xidmət edən, son illər bir-birinin ardınca qələbələr qazanan vətənpərvər hərbi qulluqçumuzun növbəti nailiyyətinin sorağı İtaliyadan gəlib.

Sentyabr ayının 20-dən 23-nə kimi İtaliyanın Bolonya şəhərində keçirilən Avropa çempionatında ilk altılığa düşərək, finala qədər irəliləyən baş leytenant R.Lunev 25 m məsafədə tapançadan sürətli atəş açmaqla 1-ci yerin sahibi olub. O, bu qələbəsi ilə 2020-ci il Tokio Yay Olimpiya Oyunlarına vəsiqəni təmin edib.

2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarında 5 qızıl medal qazanan 30 yaşlı idmançı Bolonyada iyirmi ölkənin idmançısının iştirak etdiyi çempionatda Avropa çempionu kimi adını tarixə yazdırmağı bacarıb. Azərbaycan Tokio-2020 Yay Olimpiya Oyunlarına yeddinci lisenziyanı əldə edib. O, ilk mərhələdə ukraynalı Pavel Krostlyovla eyni - 587 xal toplasa da, rəqibini əlavə göstəricilərdə üstələyib. Almaniyalı Kristian Reyts 583 xalla üçüncü yeri tutub.

Həmçinin, oktyabrın 10-dan 12-nə kimi Fransanın Şator şəhərində keçirilən Avropa Kuboku uğrunda mübarizədə hərbi qulluqçumuz birinci pilləyə qədər yüksəlib. Qeyd edək ki, 12 ölkədən 54 idmançının iştirak etdiyi açıq turnirdə 25 m məsafədə tapançadan sürətli atəş acmaqla baş leytenant R.Lunev bütün rəqiblərini geridə qoyaraq 1-ci yeri qazanıb.

"Əsgər" qəzeti olaraq biz də, öz növbəmizdə, həm dövlətimizin, həm də Daxili Qoşunların idman şərəfini qoruyan idmançı zabitimizi hər iki qələbəsi münasibətilə səmimi qəlbdən təbrik edir, ona daha böyük nailiyyətlər arzulayırıq. Düşünürəm ki, respublikamızın üçrəngli bayrağını dünya arenalarında birincilər sırasında dalğalandıran istənilən soydaşımız hər birimizin fəxri, ölkəmizin qürur mənbəyidir. Qalibiyyət zirvələriniz çox olsun, yoldaş baş leytenant...

**baş leytenant**
**Nigar Ağayeva**

3_Layout 1 14.10.2019 17:27 Page 1



# 17077 SAYLI HƏRBİ HİSSƏNİN YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA MALİK HƏRBİ QULLUQÇULARI

### *Bu gün qoşunların Eskadrilyası peşəkar pilotlar və mütəxəssislərlə komplektləşdirilib*

"Əsgər" qəzetinin səhifələrində mütəmadi olaraq Daxili Qoşunların həm Bakı qarnizonu, həm də regionlarda yerləşən hərbi hissələrinin intizamlı, bacarıqlı hərbi qulluqçularının fəaliyyəti barədə materiallar dərc olunur. Ənənəmizə sadiq qalaraq bu gün də xidməti-döyüş fəaliyyəti baxımından fərqlənən 17077 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularının xidmətini işıqlandıracağıq.

17077 saylı hərbi hissənin helikopter manqasında ekipaj komandiri kapitan Emil Xasmetov hissədə iş qabiliyyətinə, sadəliyinə və kollektiv içində hörmətinə görə seçilən zabitlərdən biridir. 1987-ci il aprelin 21-də Bakı şəhərində anadan olub. Orta təhsilini Səbail rayonu 49 saylı tam orta məktəbdə alıb. 2005-ci ildə orta məktəbi uğurla başa vuran Emil Milli Aviasiya Akademiyasının mühəndis-pilot fakültəsinə qəbul olunub.





2009-cu ildə Akademiyanın 4-cü kursunda olarkən bilik səviyyəsini daha da artırmaq məqsədilə Almaniyanın Berlin şəhərində öz ixtisası üzrə doqquz aylıq kursa cəlb olunub. Müddətli həqiqi hərbi xidmətini 2010-2011-ci illərdə Müdafiə Nazirliyinin Gədəbəydə yerləşən "N" saylı hərbi hissəsində keçib. Daxili Qoşunlara həqiqi hərbi xidmətə gəlişi 2012-ci ilə təsadüf edir. Həm hərbi hissə komandanlığının, həm də kollektivin rəğbətini qazanan pilot keçən zaman kəsiyində özünün işgüzarlıq xüsusiyyətlərini, xidmətə ciddi münasibətini göstərməyi bacarıb.

Onun tərcümeyi-halı ilə tanışlıq əsnasında məlum oldu ki, hərbi xidmətini davam etdirmək seçimi, məhz pilot olmaq arzusunu reallaşdırması heç də təsadüfi deyil. Bunda hərbçi ailəsində böyüyüb boya-başa çatmasının da rolu var. Atası Əbdürrəhman Xasmetov 1992-ci ildə Müdafiə Nazirliyinin zabiti olaraq, Qarabağ müharibəsində iştirak edib. Hazırda Qarabağ müharibəsi veteranıdır. Vaxtilə balaca Emilin də hərbçi-pilot olmaq həvəsi, savaş əzmi məhz bundan qaynaqlanıb.

Bu gün Daxili Qoşunların sıralarında xidmət etdiyi üçün qürurlandığını deyən kapitan E.Xasmetov peşəkar pilot olmaqla yanaşı, həm də intizamı və müsbət fərdi keyfiyyətləri ilə bir addım öndədir. O, tabeliyindəki ekipajın uçuşlara hazırlığına, vaxtında və tam hazırlanmasına, uçuşların təhlükəsizliyinə və uçuş tapşırıqlarının uğurla yerinə yetirilməsinə cavabdehlik daşıyır.

Ekipaj komandiri kimi onun ən böyük arzusu torpaqlarımızın işğaldan azad olunmasında iştirak etmək, üçrəngli bayrağımızı Şuşada, Xankəndidə dalğalandırmaqdır.

17077 saylı hərbi hissənin daha bir nümunəvi zabiti kapitan Kənan Nəsibovdur. O, 1981-ci il sentyabrın 26-da Göygöl rayonunda dünyaya göz açıb. Orta təhsilini Samux rayonunda yerləşən tam orta məktəbdə alıb. 1999-cu ildə məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətini Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan bir müddət sonra, 2003-cü ildə hələ yeniyetməlik illərindən arzusunda olduğu Milli Aviasiya Akademiyasının Hava gəmilərinin uçuş və elektrotexniki istismarı mühəndisliyi fakültəsinə qəbul olunub. Sözlərinə görə, məhz həmin illərdə hərbi xidmətə olan marağı onun gələcək hərbçi-pilot kimi yetişməsinə zəmin yaradıb. Belə ki, 2011-ci ildə Daxili Qoşunların 17077 saylı hərbi hissəsində aviasiya avadanlıqları reqlament və istismar qrupunda baş texnik vəzifəsinə təyin olunub. 2014-cü ildə təhsilini artırmaq məqsədilə Milli Aviasiya Akademiyasına kurslara göndərilib. Hazırda hərbi hissənin qərargahında borttexnik-təlimatçı vəzifəsindədir. Kapitan K.Nəsibov xidmətə gəldiyi ilk günlərdən özünə qarşı tələbkarlığı, intizamı ilə seçilməyi bacarıb.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Elxan Babayev bu gün haqqında danışdığımız hər iki zabitin bütün tapşırıqların öhdəsindən peşəkarlıqla gəldiyini bildirdi. Qeyd etdi ki, onlar peşəkarlıq vərdişlərinin daha da təkmilləşdirilməsi istiqamətində hər zaman çalışır, istifadədə olan helikopterlərin daima uçuşa hazır, saz vəziyyətdə saxlanılmasını təmin edirlər.

**baş leytenant**
**Nigar Ağayeva**

# "Avtomobillərin döyüş hazırlığını hər an yüksək səviyyədə qoruyub saxlamaq fəaliyyətimizin əsasını təşkil edir"

**Hərbi hissə qarşısında qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi döyüş hazırlığının yüksək olması ilə yanaşı, şəxsi heyətin, silah-sursatın və digər döyüş təchizatının əməliyyat rayonuna təhlükəsiz, eləcə də vaxtında çatdırılmasından birbaşa asılıdır. Bu baxımdan hərbi hissənin avtomobil parkında mühafizə olunan avtomobillərin və zirehli texnikaların saz vəziyyətdə saxlanılması, sürücü hərbi qulluqçuların peşə vərdişlərinin və bacarıqlarının yüksək səviyyəyə qaldırılması mühüm əhəmiyyət kəsb edir.**



16077 saylı hərbi hissədə ezamiyyət zamanı avtomobil və zirehli texnika xidmətinin rəisi mayor Coşqun Qaybalıyevlə avtomobil parkını və buradakı sürücülərlə keçirilən ixtisas hazırlığı sinfini gəzərək, yaradılmış hərtərəfli şəraitlə yaxından tanış oldum. Parkda olan avtomobillərə və zirehli texnikalara yüksək səviyyədə qulluq göstərildiyini qeyd edən xidmət rəisi, sürücülərlə keçirilən ixtisas hazırlığı məşğələlərinə də ciddi fikir verildiyini bildirdi: **"Avtomobillərin döyüş hazırlığını hər an yüksək səviyyədə qoruyub saxlamaq fəaliyyətimizin əsasını təşkil edir. Bu baxımdan müvafiq həyəcan siqnalları üzrə hərbi hissənin döyüş hazırlığı yoxlanılarkən, sürücülər tərəfindən avtomobillərin tez bir vaxtda düzülüş xəttinə çıxarılmasına, həmçinin, texnikaların daim saz vəziyyətdə saxlanılmasına xüsusi fikir verilir. Bundan əlavə, keçirilən təlimlər və texnikalara qulluq zamanı şəxsi heyətin təhlükəsizlik qaydalarına riayət etməsinə də komandir heyəti tərəfindən ciddi nəzarət olunur"**.

Mayor C.Qaybalıyev nümunəvi xidməti, bilik və bacarığı ilə digər yoldaşlarına nümunə ola biləcək sürücü hərbi qulluqçuların adlarını da qeyd etdi. O, müddətdən artıq həqiqi hərbi xidmət edən baş çavuşlar: Vüsal Məmmədov, Xanlar Osmanov, Xətai Mahmudov, Sərvan Sadıqov, Elgün Gülməmmədov və əsgər Şaiq Qasımovun məhz belə hərbi qulluqçular olduğunu diqqətə çatdırdı.

**mayor Anar Əhmədov**

*NÜMUNƏVİ XİDMƏT*

# ŞƏXSİ HEYƏTİN TƏLİM-TƏRBİYƏSİ İŞİNDƏ ƏMƏYİNİ ƏSİRGƏMƏYƏN ZABİT

16076 saylı hərbi hissənin mühafizə bölüyünün qarşısında qoyulan tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün təşkil edilməsi üçün hərbi intizamın möhkəmləndirilməsi olduqca vacibdir.



Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi qulluqçular arasında yoldaşlıq münasibətlərinin qorunub saxlanılması məqsədilə hərbi hissədə tərbiyə işi tədbirləri keyfiyyətlə həyata keçirilir. Bu işdə mühafizə bölüyü komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Xalid Mustafayevin rolu danılmazdır.

O, 1993-cü il noyabrın 20-də Zaqatala rayonunun Danaçı kəndində anadan olub. Orta təhsilini Danaçı kəndindəki 1 saylı tam orta məktəbdə alıb. Daha sonra, 2011-2015-ci illərdə Türkiyə Respublikası Quru Qoşunları Ali Hərbi Məktəbində təhsilini davam etdirib. 2015-ci ildən Daxili Qoşunların sıralarındadır. 16076 saylı hərbi hissənin mühafizə bölüyündə taqım komandiri, 2016-cı ildən isə bölük komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində xidmət edir.

Baş leytenant X.Mustafayev xidmətin aparılması barədə söhbət zamanı bildirdi ki, burada bir neçə vacib məqam var ki, onlar mütəmadi olaraq diqqətdə saxlanılır. O, ilk olaraq, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olmasının vacibliyini söylədi. Həmçinin, postda xidmət aparan saatdaların ayıq-sayıqlıq, çeviklik, qətiyyət nümayiş etdirməsinin, o cümlədən, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi əməl olunmasının mühüm əhəmiyyət kəsb edən faktorlardan olduğunu vurğuladı.

Bölük komandirinin tərbiyə işlər üzrə müavini xidmətin təşkili zamanı hərbi nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edilməsini də başlıca amil kimi qeyd etdi. Onun sözlərinə görə, yalnız bu halda mühüm dövlət obyektlərinin və hərbi hissənin etibarlı mühafizəsindən danışmaq olar.

Baş leytenant X.Mustafayev şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığından da danışdı. Dedi ki, döyüş hazırlığının yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi üçün hər gün onlarla məşğələlər keçirilir, silahların istifadəsi, sökülüb-yığılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması öyrədilir.

Xidmətə cəlb edilməmişdən öncə hərbi qulluqçularla təlimat keçirilir, onların hər biri ilə fərdi söhbət aparılır, mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları yoxlanılır.

Şəxsi heyətin asudə vaxtının səmərəli təşkil olunması da hər zaman diqqətdə saxlanılan məsələlərdəndir. Hərbi qulluqçuların istirahəti üçün lazımi şərait mövcuddur. Belə ki, asudə vaxtlarda onlar mətbuatı mütaliə edir, stolüstü oyunlar oynayır, qulaqcıqlarla radioya qulaq asırlar.

Bir sözlə, mühafizə bölüyünün şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksəkdir.

**baş leytenant**
**Xədicə Hacızadə**

# GİZİR VƏ MAXE HƏRBİ QULLUQÇULARIN ŞURASININ FƏALİYYƏTİ TƏQDİRƏLAYİQDİR

**Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında daimi fəaliyyət göstərən bir sıra ictimai təşkilatlar mövcuddur ki, onlardan biri də gizir və MAXE hərbi qulluqçuların şurasıdır. Daxili Qoşunlar komandanının müvafiq əmrilə təsdiq edilmiş Daxili Qoşunlarda gizir və MAXE hərbi qulluqçuların şurası haqqında əsasnamənin müddəalarına uyğun olaraq DQBİ-də, hərbi hissələrdə, həmçinin, əlahiddə bölmələrdə gizirlər şurası fəaliyyət göstərir. Bilavasitə Baş İdarənin strukturuna daxil olan bölmələrin gizir heyəti isə DQBİ-də yaradılan gizirlər şurasının işinə cəlb olunur.**



Bu günlərdə 16075 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən, hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Məzahir Seyidovla söhbətdən sonra məhz burada fəaliyyət göstərən gizirlər şurası haqqında material hazırlamaq qərarına gəldim. Elə bu məqsədlə də şuranın sədri gizir Elvin Abbasovla görüşərək, xidməti fəaliyyətinin istiqamətləri barədə fikir mübadiləsi apardım.

**Hərbi hissə komandiri tərəfindən müsbət xarakterizə olunan gizir E.Abbasov öz zəkasına və intizamına görə fərqlənir. O, öz xidmətini Daxili Qoşunlar komandanının müvafiq əmrilə təsdiq olunmuş əsasnamənin tələbləri əsasında qurduğunu bildirdi.**

Gizirlər şurasının vəzifələri və səlahiyyətlərindən danışarkən bu şuranın vəzifələrinin gizir heyətinə Vətənə sədaqət, onun müdafiəsi üçün məsuliyyət, milli qürur, hərbçi şərəfinin qorunması, Daxili Qoşunlarda xidmətə, hərbi peşəsinə görə iftixar və hərbi qulluqçuların şəxsi ləyaqətinə hörmət hisslərinin aşılanmasından ibarət olduğunu nəzərimizə çatdırdı. Gizirlər şurası hərbi hissənin zabit və gizir heyətinin ümumi iclasında açıq səsvermə yolu ilə iki il müddətinə üç və ya beş nəfərdən ibarət seçilir. Şura üzvlərinin sayı ümumi iclasın qərarı ilə müəyyən edilir. Təşkilat iclasında açıq səsvermə yolu ilə şuranın sədri və onun müavini seçilir. Əgər şura sədri dəyişilərsə, o, zabit və gizir heyətinin ümumi iclasında öz fəaliyyəti barədə hesabat verir.

Şuranın işi demokratiya, aşkarlıq, hərbi rütbə və vəzifəsindən asılı olmayaraq, qarşılıqlı hörmət və anlaşma şəraitində keçməlidir: **"Əsas işimiz gizir və MAXE hərbi qulluqçuların xidmətinə mane ola biləcək çətinliklərin, eləcə də ailə-məişət problemlərinin yaxından öyrənilməsi və bu istiqamətdə onlara köməklik göstərilməsidir. Xidmətdə fərqlənən hərbi qulluqçuların nümunəvi kimi təqdim olunması, intizamsızlığa meyilli hərbçilərin dinlənilməsi və əsasnamə çərçivəsində onlara qarşı ictimai təsir tədbirlərinin görülməsi, iclasda şəxsi heyəti narahat edən hər hansı məsələnin öyrənilməsi və bu barədə hərbi hissə komandirinin qarşısında vəsatət qaldırılması iş prinsipimizin əsasıdır".**

Bu şura sağlam həyat tərzini təbliğ edir, zərərli vərdişlərdən çəkinməyi tövsiyə edir, yeni təyin olunmuş hərbi qulluqçulara xidməti vəzifələrinə başlamaqda və kollektivə uyğunlaşmaqda köməklik göstərir. Gizirlər şurasının ali orqanı gizir heyətinin ümumi iclasıdır. İclas hər rübdə bir dəfədən az olmayaraq çağırılır və gizir heyətinin ümumi sayının yarıdan çoxunun iştirak etdiyi halda keçirilir. İclasın gedişi və qəbul olunmuş qərarlar protokola yazılır.

**baş leytenant**
**Nigar Ağayeva**

4_Layout 1 14.10.2019 17:10 Page 1



# Terrorizm ictimai təhlükəsizliyə ciddi təhdid yaradan faktordur

Müasir dünyada beynəlxalq təhlükəsizliyə ciddi təhdid yaradan terrorizm barədə indiyədək çox yazılıb və ətraflı danışılıb. Müxtəlif informasiya mənbələrində terrorizmi törədən amillərə dair geniş təhlillər verilib, maraqlı mülahizələr öz əksini tapıb. İctimai təhlükəsizlik baxımından böyük maraq doğuran bu problemin köklərinin, təzahür formalarının, onunla mübarizə üsullarının öyrənilməsi cəmiyyət üçün aktuallıq kəsb edir.

Terror latın mənşəli söz olaraq qorxu, xof, vahimə mənasını bildirir. Bir sıra ekspertlərin qənaətinə görə, terror müəyyən siyasi, ideoloji, iqtisadi, sosial məqsədlərə çatmaq üçün zorun, gücün, hədənin tətbiq olunması formasıdır. Etnik, dini, kriminal zorakılıq da terrorizmin növləridir. Ümumilikdə, terrorizm cinayətkarlığın ən təhlükəli formalarından biri hesab edilir.

Terror aktlarından həmişə günahsız insanlar, dinc əhali zərər görür, bu günədək dünya üzrə həmin bəladan nə qədər şəxsin həlak olduğunu dəqiq hesablamaq mümkün deyil.

Bəzi tarixi qaynaqlarda terrorizmin tarixi eramızın I əsrindən, Yaxın Şərqdə Roma işğalçılarına qarşı yəhudi dini sektası olan “Zealotos”ların törətdiyi terror aktlarından başlayır. Ayrı-ayrı tarixçilərin fikrincə, terrorizm anlayışı ilk dəfə Böyük Fransa İnqilabı dövründə meydana gəlib. Belə ki, o vaxt radikal inqilabçılar siyasi rəqiblərinə qarşı qanlı aksiyalar həyata keçiriblər. Digər mülahizələrə görə, terror bəlası XI-XII əsrlərdə Yaxın Şərqin bəzi ölkələrində Hoşasin radikal adətlərinin törəməsi kimi ortaya çıxıb və davamlı xarakter alıb. Bununla yanaşı, bir sıra tədqiqatlardan məlum olub ki, orta əsrlərdə müsəlman sektası sayılan “Assoşafilər”in nümayəndələri cəmiyyət həyatına radikal baxışlarının təsiri olaraq, xəlifə və əmirləri öldürməyə cəhd edirdilər. Həmin zaman kəsiyində Hindistan və Çində ayrı-ayrı gizli cəmiyyətlər terror aktlarına əl atırdılar.

Dünya tarixinə böyük təsir göstərmiş Rusiya kimi fövqəldövlətin keçdiyi yolun müxtəlif mərhələlərində də qanlı terror olayları baş verib. “Opriçnina terroru”, “Yakobin terroru”, Vətəndaş müharibəsi zamanı “Qırmızı və ağ terror” bu qəbildəndir.

I-II dünya müharibələri ərəfəsi və gedişində, habelə sonra Avropa, Asiya, Afrika, Cənubi Amerika qitələrini bürümüş terror dalğasına geosiyasi maraqların toqquşması, müxtəlif siyasi qütblər, cərəyanlar arasında ideoloji qarşıdurma, hərbi təcavüz və işğalların doğurduğu fəlakətlər, dini, etnik, irqi dözümsüzlük təzahürləri, cəmiyyətlərin sosial-iqtisadi dayaqlarının çökməsi, sağlam ictimai münasibətlərin tənəzzülü, qloballaşma basqılarına etiraz olaraq radikallaşma tendensiyası və sair amillər zəmin yaradıb.

Tarixdə öz məkrli məqsədlərinə nail olmaq, sərsəm ideyalarını həyata keçirmək, himayəsində və tərkibində yaşadıqları dövlətləri daxildən sarsıtmaq üçün qanlı terrora əl atan xalqlardan biri də ermənilərdir. Bu gün də onların xisləti, zehniyyəti, dünyagörüşü dəyişməyib.

Radikal erməni təşkilatlarının proqram sənədlərində terror üsullarından istifadə olunması başlıca bəndlərdən biri kimi öz əksini tapıb. 1885-ci ildə yaradılmış “Armenakan” partiyasının üzvləri qardaş Türkiyə dövlətinin o dövrdə ayrı-ayrı bölgələrində dağıdıcı terror aktları törədiblər. 1887-ci ildə yaradılmış “Hnçak” partiyasının əsas məqsədi “Böyük Ermənistan” adlandırdıqları qondarma dövləti qurmaq və bu yolda terror üsullarını geniş tətbiq etmək olub. 1890-cı ildən fəaliyyətə başlamış “Daşnaksütyun” partiyası da öz platformasına terrora çağırış məzmunlu müddəalar daxil edib. Bu partiyanın nəzdində terrorçu qruplar təşkil olunub və onlar azərbaycanlıları, türkləri, habelə digər xalqların nümayəndələrini vəhşicəsinə qətlə yetiriblər, şəhər və kəndləri viran qoyublar.

1975-ci ildə azğın erməni terror təşkilatlarından biri olan “Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu”nun (ASALA) bünövrəsi qoyulub. Bu terrorçu qurum dünyanın müxtəlif ölkələrində qanlı cinayətlərə imza atıb. Ayrı-ayrı ölkələrdə onlarla türk diplomatının öldürülməsində ASALA-nın əlinin olduğu faktlarla sübut edilib. ASALA-nın fəaliyyətinin bütün mərhələlərinə nəzər saldıqda onun əsas hədəfinin ermənilərin əsassız ərazi iddialarının təmin edilməsi, türkdilli dövlətlər və xalqlara qarşı düşmənçilik məqsədinə yönəlik terrorun həyata keçirilməsi olduğunu görə bilərik. Bundan əlavə, “Erməni azadlıq cəbhəsi”,



“Orli qrupu”, “Erməni birliyi”, “Gənc ermənilərin ittifaqı”, “Geqaron”, “İntiharçılar eskadronu”, “Apostol” adlı terrorçu təşkilatlar da şovinist daşnak ideologiyasının daşıyıcıları olaraq, insanlıq əleyhinə törətdikləri zorakılıqlar, ağlasığmaz vəhşiliklərə görə həmişə lənətlənəcəklər.

Ermənistan təcavüzkar və terroru dəstəkləyən dövlətlərdən biridir. Bu gün dünyada mövcud olan ikili standartlar Ermənistanın işğalçı və terrorçu dövlət kimi beynəlxalq birlik tərəfindən cəzalandırılmasına imkan vermir. Belə vəziyyət Ermənistanın və onun arxasında dayandığı terrorçu təşkilatların daha da azğınlaşmasına gətirib çıxarır.

Beynəlxalq təhlükəsizlik qurumlarının müvafiq sənədlərində adları qeyd olunan müxtəlif terrorçu təşkilatların fəaliyyəti barədə bu günədək kütləvi informasiya vasitələrində geniş məlumatlar verilib. Elə terrorçu təşkilatlar var ki, onların dağıdıcı fəaliyyəti konkret bir regionun sərhədlərini aşaraq, bütövlükdə, beynəlxalq təhlükəsizliyə ciddi təhdid yaradır. “Əl-Qaidə”, “Taliban”, “Cəbhət ən-Nüsra”, “İŞİD”, “Boko Haram”, “PKK” kimi terrorçu təşkilatlar məhz bu siyahıya aiddir. Adları qeyd olunan terrorçu təşkilatlar geniş coğrafi ərazini hədəfə götürüblər, zəngin silah arsenalına malikdirlər, tərkibcə strukturlaşmış haldadırlar, dinc əhalini qorxu altında saxlamağın psixoloji üsullarına, habelə güc qurumlarına qarşı çoxşaxəli diversiya taktikasına, müxtəlif relyefli ərazilərdə, eləcə də yaşayış məntəqələrində gizli qala bilmək fəndlərinə yiyələniblər. Türkiyə, Suriya, İraq, Liviya, Livan, Yəmən, Əfqanıstan, Keniya və Namibiyada törədilən terror aktları yuxarıda göstərilən terrorçu şəbəkənin nə dərəcədə təhlükəli olması barədə real təsəvvür formalaşdırır.



2001-ci ilin sentyabr ayının 11-də Amerika Birləşmiş Ştatlarında törədilmiş, çoxsaylı insan tələfatı ilə nəticələnmiş dəhşətli terror aktlarından sonra beynəlxalq aləmdə terrorizmlə mübarizədə yeni mərhələ başladı. Beynəlxalq ictimaiyyət bu bəşəri bəlanın qarşısının alınması, onu doğuran səbəblərin aradan qaldırılmasında birgə səylərin, koordinasiya olunmuş fəaliyyətin vacibliyini dərindən dərk etdi. Təsadüfi deyil ki, həmin vaxtdan etibarən dünya üzrə antiterror hərəkatı geniş vüsət aldı. Beynəlxalq terrorizmlə mübarizə yönümündə ayrı-ayrı dövlətlərin iştirakı ilə koalisiyalar, əməkdaşlıq platformaları formalaşdı.

Azərbaycan Respublikası bu günədək erməni terrorizmindən ciddi zərər görmüş, ərazisinin bir hissəsi işğal altında olan ölkə kimi beynəlxalq miqyasda terrorun bütün təzahürlərinə qarşı mübarizə tədbirlərini dəstəkləyir. Ölkəmiz beynəlxalq antiterror koalisiyasının üzvüdür. Terror şiddətinin yüksək olduğu Əfqanıstanda azərbaycanlı sülhməramlılar təhlükəsizliyin təmin edilməsinə indiyədək təqdirəlayiq töhfələr veriblər.

Dövlətimiz dünyada tolerantlığın ünvanı kimi tanınır və multikultural cəmiyyət modeli ilə layiqli nümunə göstərir. Həmçinin, sivilizasiyalararası, dinlərarası dialoqun davamlı şəkildə təşkili istiqamətində addımlar atmaqla milli-dini dözümlülük ənənələrinin möhkəmlənməsi naminə öz səylərini əsirgəmir.

Azərbaycan bu gün atəşkəs şəraitində yaşasa da, daxili sabitliyin, ictimai təhlükəsizliyin etibarlı şəkildə qorunduğu az sayda ölkələrdən biridir. Nəzərə almaq lazımdır ki, terrorizm üçün münbit şərait daxili sabitlik olmayan, ictimai təhlükəsizlik təmin edilməyən cəmiyyətlərdə yaranmış olur.

Yaxın tarixi keçmişimizdə baş vermiş terror aktlarını heç vaxt unutmaq olmaz. Qarakənd səmasında helikopterin vurulması, Bakı metrosunda, ayrı-ayrı sərnişin avtobuslarında, qatarlarda və gəmilərdə, Dövlət Neft Akademiyasının korpuslarından birində törədilmiş terror aktları yaddaşımızda silinməz iz buraxıb. Günahsız qurbanların xatirəsi isə qəlbimizdə daim yaşayacaqdır. Biz düşmən tərəfindən başımıza gətirilən bu faciələrimizi unutsaq, yeni faciələrlə üzləşə bilərik.

Vətəndaşlarımız daim ayıq-sayıq olmalıdırlar. Terrorçuluq mövzusunda orta məktəblər, kolleclər, universitetlərdə xüsusi məşğələlər keçirilməlidir. Gündəlik həyatımızda şübhəli şəxslər, sahibsiz əşyalar aşkar etdikdə dərhal polis əməkdaşları məlumatlandırılmalıdır. Televiziya və sosial şəbəkələrdə, mətbuatda terrorçuların hücumu zamanı necə davranılması, onların istifadə etdikləri vasitələr barədə informasiyalar verilməlidir.

Terrorla mübarizə sahəsində ixtisaslaşmış ekspertlərin sözlərinə görə, hazırda terrorizmin ən təhlükəli təzahürləri özünü “canlı bomba”ya çevirənlərin qanlı əməlləri, təkmil texnologiyalar, yoluxdurucu, zəhərləyici maddələr, aldadıcı, maskalayıcı vasitələrdən istifadə etməklə törədilənləridir. Terror şəbəkələri yeniyetmələr, gənclər, psixoloji cəhətdən qeyri-sabit, ideoloji təsir altında olan şəxslərə qarşı “beyin yuyulması” adlanan təlqin seanslarını həyata keçirirlər. Bu işdə internetin imkanlarından geniş istifadə olunur. Ona görə də terrorizmlə mübarizədə internet təhlükəsizliyi məsələsi çox aktualdır.

Qeyd etmək lazımdır ki, terrorçular kütləvi qırğın silahlarına da yiyələnməyə can atırlar. Bunun baş verəcəyi təqdirdə dünyanın hansı fəlakətlərlə üz-üzə qalacağını təsəvvür etmək çətin deyil.

Dünyanın əksər ölkəsində terrorçulara qarşı ağır cəzalar müəyyən olunub. Hətta ayrı-ayrı ölkələrin hüquq-mühafizə fəaliyyəti, cəzaların icrası praktikasında silahlı müqavimət göstərərkən zərərsizləşdirilmiş, təslim olmayaraq özünü öldürmüş, penitensiar müəssisədə cəza çəkərkən vəfat etmiş terrorçuların nəşinin dəfn üçün ailələrinə verilməsi qadağandır. Bundan başqa, onların dəfn olunduqları yer barədə də məlumatlar açıqlanmır.

Heç bir məqsəd və ya məram, ideoloji baxış və əqidə terror əməlinə bəraət qazandıra bilməz. İstər dünyəvi təfəkkür, istərsə də dini dünyagörüşü nöqteyi-nəzərdən terrorçuluq bağışlanmaz günah, əfv edilməyən ağır cinayətdir.

**Yalçın Abbasov**

## HƏRBİ XƏBƏRLƏR

**-YENİLİKLƏR -**

### İsrail şirkəti yeni antidron silah modulunu nümayiş etdirəcək

İsrailin “General Robotics Ltd” şirkəti Londonda keçiriləcək DSEI-2019 sərgisində uzaqdan idarə olunan “Pitbull-3” adlı yeni antidron silah modulunu nümayiş etdirəcək.




Bu barədə “AzeriDefence”ə “General Robotics Ltd” şirkətindən məlumat verilib.

“Point&Shoot” texnologiyasına əsaslanan “Pitbull-3” döyüş modulu bütün növ dronları aşkarlama, izləmə və zərərsizləşdirmə qabiliyyətinə malikdir.

Cəmi 70 kq ağırlığında olan “Pitbull-3” döyüş modulu yüngül nəqliyyat vasitələrinə və suüstü vasitələrə inteqrasiya edilə bilir.

### ABŞ-da unikal robot-itdən polis və orduda istifadə olunacaq

Bir neçə il əvvəl ABŞ-da populyar “Black Mirror” teleşousunda nümayiş etdirilən robot-it indi xüsusi istifadəçilər üçün də əlçatan olacaq. AZƏRTAC CNN telekanalının saytına istinadla xəbər verir ki, “Boston Dynamics” şirkətinin təqdim etdiyi bu robotun özəllikləri nümayiş etdirilib. Jurnalistlər “Spot” adlanan bu texnologiya möcüzəsinin pilləkənlərlə hərəkət, tikinti obyektlərinə dırmanmaq, pis hava şəraitində naviqasiya və hündürlükdən düşdükdən sonra asanlıqla qalxaraq qaçmaq kimi məziyyətlərinə tamaşa ediblər. Robot-itin saniyədə 1,6 metr sürətlə hərəkət etməsi, üzərindəki kameranın geniş sahəni əhatə edərək ətrafdakıları qeydə alması, toz və suya qarşı davamlılığı və 45 dərəcəyə qədər temperatura davam gətirməsi də təqdim edilib. Bildirilib ki, robot-it tikinti, qaz kəmərlərinin çəkilməsi, ictimai asayişin qorunması sahələrində istifadə olunacaq. Qeyd olunub ki, “Spot”un dəyəri yeni avtomobildən də baha olacaq.




*Sağlamlıq*

## Sinir sistemini qoruyan vacib vitamin

**Xolin və ya B4 vitamini orqanizmin bir çox proseslərində iştirak edir. Lakin bu vitaminin əsas vəzifəsi sinir sistemini qorumaq, onun fəaliyyətini yaxşılaşdırmaqdır.**

Xolin sinir hüceyrələrini dağılmaqdan qoruyur, sinir sistemində pozulmaların inkişafının qarşısını alır. İngiltərə alimləri eksperiment zamanı sübut ediblər ki, qidalanmada xolin maddəsinin artması yaddaşın xeyli yaxşılaşmasına kömək edir. Xolin Alsgeymer xəstəliyinin müalicəsində və bu xəstəliyin profilaktikasında faydalıdır. Həmçinin, beyin damarlarının sağlamlığını qoruyur ki, bu da insultun profilaktikasında böyük rol oynayır. Mütəxəssislər stress, depressiya, nevroz zamanı qidalanmada xolinin miqdarını artırmağı tövsiyə edirlər.

**Xolin vitamini aşağıdakı qidalarda mövcuddur:**

**- yumurta və xüsusilə yumurta sarısı xolinin əsas mənbəyidir. Yumurtanı ılıq şəkildə yemək daha faydalıdır ki, bu halda xolin saxlanılır;**



**- qaraciyər, ət;**
**- cücərdilmiş buğda;**
**- paxlalar (mərci, noxud, lobya);**
**- süd məhsulları;**
**- ispanaq;**
**- kələm;**
**- araxis.**

## Allah rəhmət eləsin

16077 saylı hərbi hissənin komandanlığı gizir Ruslan Sarıyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000